Ədəbiyyat qəzeti



Hüseynbala MİRƏLƏMOV

# AĞ BULUDLAR İÇİNDƏ

## Povestdən bir parça

### Birinci fəsil

*İnsanların hamısı eyni dərəcədə xoşbəxt ola bilməz. Hamının öz taleyi vardır. Sevinci, kədəri vardır. Eyni vaxtda, eyni dağın üstündə işıq da ola bilir, kölgə də ola bilir - insan taleyi də bunun kimi. Elə buna görə də həyat rəngarəng olur...*

**Çingiz Aytmatov**
**"Əlvida, Gülsarı!"**

* * *

*Ən gözəl şeirdir qadın bədəni,*
*Allahın ilhamı coşubmuş inan.*
*Bu şeiri bu qədər gözəl yaradıb*
*Dünya kitabına yazdığı zaman.*

**Henrix Heyne**

...Hava çox istiydi. Yaşadığı evin pəncərəsindən baxanda da bunu görmək olurdu. Hamı kölgə ilə getməyə çalışdığından küçənin bir tərəfi tamamilə boş idi. Bu boşluğu birdən-birə ürəyində hiss elədi və tez də özündən aralamağa çalışdı. Sevdiyi, heç vaxt ayrılmadığı kitabını götürüb oxumağa çalışsa da, fikri üç gün əvvəlki hadisələrin yanındaydı...

Vüqar telefona baxıb xoş bir ləhcəylə oxumağa başladı:

*- Kimi der ki kadın*
*Uzun kış gecələrində yatmak içindir.*
*Kimi der ki kadın*
*Yaşıl bir harman yerində*
*Dokuz zilli koçek kimi oynatmak içindir.*
*Kimi der ki ayalımdır,*
*Boynumda taşıdığım vəbalımdır.*
*Kimi der ki hamur yoğuran,*
*Kimi der ki cocuk doğuran.*
*Ne o, ne bu,*
*Ne döşek, ne koçek.*
*Ne ayal, ne vebal.*
*O benim kollarım, bacaklarım,*
*Başımdır.*
*Yavrum, annem, karım, kızkardeşim,*
*Həyat arkadaşımdır.*

- Sözlər də gözəldir, onu mənə göndərən də. Kimin şeiridir?

Nigar gülümsəyərək: - "Nazim Hikmətin" - dedi. Yoxsa fikirləşdin ki, mən şeir də yazıram?

Vüqar "Niyə, olmaz ki?" - deyib Nigarı başdan-ayağa süzdü, - amma mesajlarda həmişə adını Gülsarı yazırsan. Bu, nə gözəl, qeyri-adi addır belə?

...Nigarın "Deyəcəm. Dur, pəncərəni bağla, nəsə üşütmə gəldi canıma" sözlərindən sonra Vüqar yataqdan qalxdı. Bayırda topla oynayan uşaqların sevinc dolu çığırtıları eşidilirdi:

- Qasım, mən tərəfə at, mən tərəfə at topu!

- Samir, sağa çəkil, orda durma!

- Ehhh, Ağa, yenə həmişəki kimi vura bilmədin!

Vüqar pəncərədən uşaqların həyəcanla, şövqlə topun arxasınca necə qan-tər içində qaçmalarına tamaşa elədi. Uşaqlıq illəri yadına düşdü. Uşaqlığında məhəllə meydançasında futbol oynadığı zamanları xatırlayıb gülümsədi. Özü də eynən o uşaqlar kimi tər içindəydi, canının od-alovu səngiməmişdi...

Ömrünün ən dadlı günlərinin keçdiyi bir dağ kəndindən başqa bir şəhərə köçdükləri günü xatırladı. Evdən götürülməli nə vardısa hər şeyi yük maşınına yığıb özlərinə də birtəhər o əşyaların, yorğan-döşəyin arasında yer eləmişdilər. Evləri kədərli və təəccüblü gözlərlə onları "yola salırdı". Bütün günü oynayıb çapdığı atı da qapıda dayanıb onlara baxırdı. Sanki bir daha bura dönməyəcəklərini bilirmiş kimi üzünü göyə tutub kişnədi də. Bildi ki, onu görməyib bir azdan evin ətrafında dolanacaq, az qala dil açıb danışacaq... Atası oxutmaq, "adam eləmək" üçün o gün onu da, qardaş-bacılarını da heç vaxt unuda bilmədiyi bu mühitdən, dağdan-daşdan ayırıb yad bir şəhərə apardı. Özünə də zülm elədi, elə uşaqlarına da. Çünki o yaşda bu yerdəyişməyə, bu köçə heç kim hazır deyildi - nə atası, nə anası, nə də qardaş-bacıları... Sonralar bu ayrılığın mükafatı kimi həyat ona çox gözəlliklər və şirin şeylər bağışlasa da, körpəlikdə, uşaqlıqda gördüyü o şirinliyi və gözəlliyi heç vaxt qaytarıb verə bilmədi...

- Vüqar, xeyir ola, niyə fikirə getdin, - Nigarın səsindən sanki ayılıb bu günə qayıtdı. Şaqqıltı ilə pəncərəni örtdü, çevrilib yataqda uzanan Nigarı sevgi dolu baxışlarla süzdü. Mələfə sürüşüb yatağın kənarından sallanırdı. Nigar da bir əli başının altında uzanaraq pəncərənin qarşısında onu süzən Vüqara nazla gülümsəyirdi. Baxışlarında həm cilvə, həm də hökmranlıq vardı. Pişik balası kimi xumarlanırdı. Qara saçları ağappaq balışa dağılmışdı. İçərisində sanki vulkan gizlənmiş yumru, dolğun döşləri meydan oxuyurcasına baş qaldırmışdı. Gilələri təzə yetişməkdə olan palıd qozalarıtək dimdik durmuş bu döşlər Vüqarı sanki əsir etmişdi. Dolu qolları, sütun kimi dümdüz, ağappaq və ətli baldırları qadın gözəlliyinin Yaradanın şah əsəri olduğu gerçəyini bir daha sübut edirdi... Ayaqları arasından cənnəti andıran həzz dolu paralel bir dünyaya aparan sirli-sehrli, şipşirin "keçid tuneli" Vüqarı necə əfsunlamışdısa, bundan sonra onsuz yaşaya biləcəyini təsəvvürünə belə gətirmirdi. Nigarın ağappaq bədənində ətirli və təravətli bir dağ laləsitək açılan son dərəcə gözəl göbəyi Vüqarı heyran etmişdi. Nigar xumar-xumar əli ilə yavaşca yatağa vuraraq Vüqarı işarə ilə yanına çağırdı.

- Əslində mənim adım Nigardır. Atam sevirdi bu adı. Babamsa dünyasını dəyişənə kimi mənə "Gülsarı" dedi. Gözəl bir atı vardı, ona da "Gülsarı" deyirdi. Mənim də uşaqkən saçlarım sapsarıydı, məni də "Gülsarı" deyib çağırardı. İndi nə atam var, nə babam. Bircə babamın atı qalıb Mərdəkanda, bir də mən... Məni necə çağırmaq istərdin ki?

Vüqar pəncərənin yanından az qala uçaraq yatağa düşdü. Onu yenidən qucaqladı, ətli dodaqlarını dodaqları arasına alıb möhkəmcə öpdü. Sonra yavaş-yavaş dümdüz qarnına tərəf sürüşdü, dilini göbəyində gəzdirib sanki marçıltı ilə, sehrli gümüş bir piyalədən həyat şirəsi içirmiş kimi alovlu-alovlu pıçıldadı:

- Hər ikisi mənə əzizdir. Sən burda mənimçün Nigar, xəyallarımda Gülsarısan. Belə çağırsam olarmı?

Dedi və cavabını gözləmədən onu ehtirasla öpüşlərə qərq elədi.

- Qoy məni bu sehrli dərinlikdə basdırsınlar, bundan sonra yüz il də bu qolların arasında uyumağa, burdan çıxmamağa hazıram...

Sinəsini öpəndə qadın cilvə ilə Vüqarı yavaşca itələyib güldü:

- Yaxşı sən də, yavaş bir az, nolub? Elə bil on il əsirlikdə saxlayıblar səni, qadın görməmisən...

- Elə əsir kimi bir şey idim bugünkü görüşə qədər. Səni görəndən sonra əsl qadının nə demək olduğunu anladım...

- Peşman deyilsən, Vüqar?

- Niyə?

- İkimiz də evliyik...

- Nə olsun ki? Yenə görüşəcəyik?..

Nigar sınayıcı nəzərlərlə Vüqara baxdı. Vüqarın ona heyranlıqla baxması qadınlıq qürurunu oxşadı. Vüqar siqaret yandırdı, yastığı başının altında dikləşdirib söykəndi, dərin bir qullab aldı. Gözünü yumdu, yaşadığının yuxumu, reallıqmı olduğunu ayırd etməkdə çətinlik çəkdi. Bir anlıq əlindəki siqareti unutdu, kül yatağa dağıldı. Nigar gülərək dedi: "Yandıracaqsan bizi, Vüqar, yataqda siqaret çəkmə. Vəsilə yatağın bu vəziyyətini görüb dəli olacaq" - dedi.

Vüqar da güldü, siqaretdən növbəti qullab götürüb yavaşca dedi:

- Mən bu gün yandım onsuz da, sən bu gün mənim indiyə qədər bildiyim hər şeyin üstündən xətt çəkdin. Neçə illərdir əslində yaşamadığımın fərqinə vardım. İstəyirəm davamlı olaraq görüşək. Səni buraxmaq fikrində deyiləm. Elə bil neçə il idi boğulurdum, sən gəldin mənə yaşamaq üçün nəfəslik açdın. Nə yaxşı ki, sən məni axtarıb tapdın, heç nəyə baxmayaraq görüşə çağırdın. Ruhum, bədənim təzələndi səninlə. Elə bil yüz ildi səni tanıyıramış...

Nigar yataqdan qalxıb mətbəxə keçdi, elektrik çaydanını suyla doldurdu. Barmaqlarının ucunda yenə qayıdıb yatağa uzandı, çarpayının kənarından sallanan mələfəni sinəsinə çəkdi:

- Mən də səni tapdığım üçün sevinirəm, Vüqar. Uzun illərdən sonra ilk dəfə vəzifə borcumu yerinə yetirirmiş kimi yox, özümü əsl qadın kimi hiss edərək görüşdüm səninlə... Amma elə görüşməliyik ki, Həsən bundan zərrə qədər də duyuq düşməsin. İkimizi də öldürər...

Vüqar üçün artıq ölməyin-öldürməyin heç bir fərqi yoxuydu. Bir az əvvəl Nigar onu uşaq kimi vannaya qoyub çimizdirir, saçlarını sığallayır, uzanmış dırnaqlarını tuturdu. O isə özündən asılı olmayaraq birdən-birə ona: "Sən həm də mənim anamsan..." - dedi. Dedi və ilk görüşdəcə bu dediyindən qorxdu. Bu, necə gəldi dilinə, özü də bilmədi. Uşaqlığını qoyub gəldiyi həmin ev, həmin həyət canlandı gözlərinin qabağında. Anası onu teştə salıb çimizdirirdi. Ətrafda sanki hamı ona baxırdı. O isə ən çox atından utanırdı. Niyə, özü də bilmirdi...

Nigar durub ağ rəngli şifonerin qapısını açdı, dolablardakı paltarları qarışdırdı, əlinə qırmızı rəngli bir yay donu keçdi. Elə alt paltarlarını geyinmədən donu əyninə keçirdi. Şifonerin qapısını yavaşca örtdü. Qapının üstündəki bədənnüma güzgüdə alıcı gözlə özünə baxdı. Dolğun döşlərinin palıd giləleri nazik donun altından hiss olunurdu. Ondan daha arıq olan yaxın rəfiqəsi Vəsilənin donu əndamına elə kip oturmuşdu ki, Vüqar yerində sakitcə uzana bilmədi. Cəld yerindən qalxıb ona yaxınlaşdı, arxadan sarılıb boynunu qoxladı. Elə boynunu qoxlaya-qoxlaya gizli nəzərlərlə güzgüdən qadını süzdü, düşündü: "Elə bil Allah arxayın vaxtında yaradıb zalım qızını. Necə də gözəldir... Mən hələ bircə dəfə yaxınlıq etdiyim bu qadını güzgüyə də qısqanmağa başlayıram ki? Mənim yanımdan çıxıb ərinin yanına gedəcək. Gecə də Həsən beləcə onun belini qucaqlayacaq?!" Onu qarmaqarışıq fikirlərdən mətbəxdə qaynayıb çıqqıltı ilə atan çaydanın səsi ayırdı. Nigar sıyrılıb onun qollarının arasından çıxdı. Əlindən tutub mətbəxə çəkdi: "Gəl, çay içək, susamışam"...

Nigarın mətbəxdə dolabları rahatca açıb baxmasından, boz rəngli bahalı soyuducunun alt gözündən iki tikə kəsmikli piroq çıxarıb təzə dəmlədiyi çayın yanına qoymasından Vüqar anladı ki, bu evin hər künc-bucağını Nigar yaxşı tanıyır. Özünü saxlaya bilməyib soruşdu:

- Tez-tez gəlirsən bura?

- Rəfiqəm Vəsilənin evlərindən biridir, arada burda qalır, arada da iş yeri Mərdəkana yaxındır deyə ordakı bağında. Bağa köçüb xeyli vaxtdır, amma soyuducunu işlək vəziyyətdə, içində ərzaqla saxladığına görə yəqin hərdən şəhərə də gəlir. Buranın bir açarı həmişə məndə olur, amma gəlməzdən əvvəl mütləq özünə zəng edirəm. Vəsilə ilə yeniyetməliyimizdən rəfiqəyik. Mən Tibb Universitetində oxuya-oxuya tələsik ərə getdim o vaxt, elə bil Həsən harasa qaçandı. Vəsilə isə ağıllı çıxdı, karyerasını da qurdu, özü özünə gün-güzəran düzəltdi. Ərə də getmədi. Gənc olanda qarşısına çıxanları bəyənmədi, indi də yaşı qırxa yaxınlaşıb, istəyən olanda da deyir, "Qadam ərin ürəyinə, indi də puluma, evimə görə istəyirlər məni, neynirəm elə kişini?" Eh, Vəsilədir də, onun düşüncəsi başqadı, o, hər yay xarici ölkələrə gəzməyə getməsə, elə bil yaşamıram deyir.

Gülüb davam etdi:

- Niyə soruşdun, şübhələndin ki, Həsənin başqa bir dostu ilə də bura gələ bilərəm?

- Ağlına gələni danışma. Evi yaxşı tanıdığını gördüm, ona görə soruşdum.

- Hərdən Həsənlə dalaşanda gəlib bir-iki gün burada qalıram. Küsüb anamgilə gedəndə sorğu-sualla məni bezdirirlər, amma burada rahat oluram. Hirsim soyuyanda da qayıdıram evə.

Çaydan sonra Vüqar həvəssiz-həvəssiz paltarlarını geyinməyə başladı.

Nigar Vüqarın qarşısında durub onun köynəyini düymələyə-düymələyə nazla gözlərini qıyıb "Evə gedirsən?" - deyə soruşdu.

Vüqar onu qucaqlayıb dodaqlarından öpdü. Amma evə gedib-getməyəcəyi barədə heç nə demədi. "Hə, saat onun yarısıdır... Görüşəcəyik yenə? Cavab ver, əzizim, yenə görüşəcəyik?" - deyə Vüqar qapıda dönüb bir də ona sarıldı, odlu nəfəsi ilə qulağına pıçıldadı: "Səndən doymadım... Yenə istəyirəm, gələn dəfə arxayın vaxtda görüşək, qaçaraq gəlib-getmək istəmirəm... Bədəninin ətri məni dəli eləyir, sən indiyə kimi hardaydın?.."

Nigar gülüb "Həsənin yanında" - dedi. Vüqar bir az acıqlı nəzərlərlə ona baxdı, dodaqlarından möhkəmcə öpüb pilləkənləri sürətlə endi.

Nigar qapını bağlayıb yataq otağına keçdi. Pəncərənin pərdəsini azacıq aralayıb aşağı boylandı. Vüqar qara rəngli avtomobilinin yanına çatıb dayandı, boylanıb yuxarı baxdı. Nigar gülümsəyib pərdəni çəkdi. Özünü yatağa atıb Vüqarla yollarını kəsişdirən bu görüşə necə gəlib çıxmalarını yaddaşından keçirməyə başladı...

## *İkinci fəsil*

*Nə etmək, ömrün yarısı xəyallarda keçir, bəlkə buna görə də həyat belə şirin olur. Bəlkə həyat ona görə bu qədər əziz olur ki, insan arzu etdiklərinin hamısına nail ola bilmir.*

**Çingiz Aytmatov**
**"Əlvida, Gülsarı!"**

* * *

*İndi gözlərinin qabağındayam,*
*Hayanda durum ki, görəsən məni?..*

**Nəriman Həsənzadə**

Həsən evin qapısından içəri addım atan kimi salamsız-kəlamsız havanı qoxladı, "Yenə kələm dolması bişirmisən? Demişəm axı xoşlamıram bu zəhəri, niyə üç gündən bir bunu bişirirsən?"

Nigarın təbəssümü üzündə qaldı. Əlindəki kitabı bir yana qoyub: "Qapıdan girəndə salam ver, heç olmasa. Ayrıca şorba da eləmişəm. Elə öyrənmisən qışqırmağa..." - dedi.

- Nədir belə bu gecə-gündüz oxuduğun? Bitmədi, qurtarmadı? Lap seriala oxşadı ki... Mərdəkanda at, burda kitab... Kefdəyik ee.

Nigar susdu, heç nə demədi. Öyrəşmişdi bütün bunlara. Ac olanda da beləydi Həsən, tox olanda da... Neçə ildir ki, bir yerdədirlər, amma heç cürə uyğunlaşa bilmirlər. Əvvəlcə Həsən uşaq istəmədi, indisə o istəmir... Vaxt tapanda babasının ona bağışladığı, Mərdəkanda bağda anasının yanında saxladığı Gülsarı adlı atının yanına tələsir. Dəniz qırağında onunla gəzməyin ayrıca bir ləzzəti var Gülsarı üçün. Hər iki Gülsarı bunu səbirsizliklə gözləyir. Əvvəlcə babası baxardı ata. Amma bir gün: "O Gülsarı, sən Gülsarı" - deyib atın cilovunu ona uzatdı...

Həsən əl-üzünü yuyub qaşqabaqlı halda süfrəyə oturdu. Başını qaldırmadan şorbanı qaşıqladı. Sonra ortaya qoyulmuş kələm dolmasından da üç dənə boşqabına qoyub çörəksiz yedi.

Nigar aradakı gərginliyi götürmək üçün gülərək, "sən də xoşlamıram deyə-deyə hər dəfə dolmanı gözünə təpirsən" - dedi. Həsən acıqla onu süzdü, nəsə deyəcəkdi, demədi, deyəcəklərini, demək istədiklərini uddu. Nigar yenidən qılıqlı səslə, "Həsən, işdə nəsə baş verib? Niyə əsəbisən?"

Onun yumşaq səsindən Həsənin əsəbləri sanki bir az soyudu: "Hə, işdə də hər şey qarışıb bir-birinə. Yaman yorulmuşam. Elə dincəlmək istəyirəm...".

Həsən susdu. Nigar Həsənin bu yersiz gileylərindən bezmişdi. Hər gün eyni şikayətlər... Lap bezmişdi. Bir anlıq gözləri yol çəkdi. Xəyalı ani sürətlə Mərdəkana, dəniz sahilinə uçdu. O səhər necə də xoş idi. Həvəslə sahildə atını dördnala çapırdı. Adamlar seyrək idi...

Qarşı tərəfdən əlində çox böyük bir itin xaltası olan əcnəbi bir qadın gəlirdi. At onlara çatanda it dartınaraq sahibinin əlindən çıxıb gözlənilmədən ata hücum elədi. At bu gözlənilməz hücumdan bərk hürkdü. Şahə qalxdı. Vahiməli bir səslə kişnədi. İt bərkdən hürürdü. At az qala Nigarı üstündən yerə tullayacaqdı. Elə bu zaman sahillə qaçan qara eynəkli bir kişi özünü Nigara çatdırıb onu atın üstündən çətinliklə də olsa götürə bildi. Nigar artıq tanımadığı cavan bir kişinin qucağında idi. Gözlər, üzlər, saçlar hələ bu qədər bir-birinə yaxın olmamışdı. Kişinin məğrur siması, gözlərindəki səmimiyyət və arxayınçılıq Nigarı o dəqiqə sakitləşdirdi. Kişi: - Qorxdunuz? - deyə Nigardan soruşdu. Nigar özünü sındırmadan "Yox, yox, qorxmadım, çox sağ olun" - deyərək onun qucağından yerə sıçradı.

Tanış oldular - Vüqar və Nigar. Sonrası bir yuxu kimiydi. Hər ikisi atın yüyənindən tutub birlikdə sahil boyu addımladılar. Bəlkə səhərin havasındandı, ya da dənizin - demək çətiniydi. Sadəcə atın cilovundan elə yapışmışdılar ki, sanki atı itirəcəklərindən qorxurdular. Vüqar dayanmadan və həvəslə danışırdı. Nigar isə onun nə danışdığının fərqində deyildi. Vüqarın belə yaxında olması, ikisinin də bir atdan-bir yüyəndən yapışması ona çox şeyi unutdurmuşdu. Dayanmadan günlərlə belə Vüqarla yol getməyə içində bir ehtiyacın necə baş qaldırdığının artıq fərqindəydi. Nigar hələ də özünü o kişinin - Vüqarın qucağında hiss edirdi. Xoş bir təsadüf deyilmi, - deyə ürəyindən keçirdi. Əlbəttə, o, başına gələn bu hadisəni Həsənə söyləmədi...

Həsən adəti üzrə yerini rahatlayıb televizora baxırdı. Nigar da beynində sahildəki o hadisənin təəssüratları ilə yaşaya-yaşaya ev işləri ilə məşğul idi. Onu xoşagəlməz bir hadisədən xilas edən o insanı düşünürdü. Maraqlıdır, görəsən onlar bir də rastlaşacaqlarmı?..

Bir azdan Nigar dünyadan bixəbər yatmış Həsənin yanında uzanıb o günü, o səhəri yenidən xəyalında canlandırmağa çalışırdı. Vüqar və Həsən... Dünyagörüşləri, xasiyyətləri, cəsarətləri... Bu fonda Həsən necə də yazıq görünürdü. Bəlkə elə Vüqara duyduğu hissin təsiri ilə dönüb yavaşca Həsəni sığalladı, sinəsini yavaşca oxşadı, astaca "Həsən, Həsən, yatmısan?" - dedi. Nəsə danışmaq istədi Həsənlə, könlünü almaq istədi Həsənin. Həsən isə yatırdı, bu nəvazişi, bu istəyi hiss etmirdi...

Gecə yarıdan keçmişdi. Nigar isə yata bilmirdi. Yuxusu ərşə çəkilmişdi. Düşüncələr onu yormuşdu. Gecə isə uzanırdı... Qaranlıq səmada ulduzlar sayrışırdı...